**Vergi borclarının hesablanması üçün dolayı metodlar**

Aprelin sonunda Avropadaxili Vergi Administrasiyaları Təşkilatına (IOTA) üzv olan 21 dövləti təmsil edən vergi auditorları, vergi müfəttişləri, vergi qiymətləndirməsi üzrə mütəxəssislər, analitiklər, fiskal yoxlama mütəxəssisləri, faktların seçilməsi və auditə yardım şöbələrinin əməkdaşları Varşavada bir araya gələrək vergi ödəyicilərinin öhdəliklərinin müəyyənləşdirilməsi və yoxlanılması üzrə dolayı metodların əməli olaraq tətbiq edilməsi məsələlərini müzakirə etmişlər.

Seminar iştirakçıları vergi ödəyicilərinin alternativ mənbələrdən daxil olan gəlirləri, eləcə də xərcləri barədə məlumatları əldə etməyin ən səmərəli üsullarını müzakirə etmiş və həmin məlumatların vergi borclarının qiymətləndirilməsində nə dərəcədə faydalı olduğunu nəzərdən keçirmişlər.

IOTA-nın Polşa Maliyyə Nazirliyi ilə tərəfdaşlıqda təşkil etdiyi bu konfransın məqsədi dolayı metodların tətbiqi zamanı ortaya çıxan hüquqi, administrativ və texniki problemlərin həllinin tapılması, eləcə də həmin problemlərin aradan qaldırılması üçün IOTA-ya üzv ölkələrin vergi administrasiyalarının atmalı olduqları innovativ addımları, uğur gətirə biləcək yanaşmaları müəyyənləşdirmək idi.

«IOTA-ya üzv ölkələrin vergi administrasiyalarının dolayı metodların əməli tətbiqi ilə bağlı əldə edilmiş təcrübələri mübadilə etməklə və dərslərdən nəticə çıxarmaqla bir-birindən öyrənməsi çox mühüm əhəmiyyət kəsb edir», - Polşa Maliyyə Nazirliyi Vergi Administrasiyası Departamentinin direktoru cənab Makiej Mlodjikovski seminarın açılışı zamanı iştirakçıları salamlayarkən demişdir.

Seminarın aparıldığı müddət ərzində qruplar üzrə üç sessiya və nümayəndələr üçün dolayı metodların praktiki tətbiqi ilə bağlı hazırda mövcud olan təcrübələri müzakirə və mübadilə etməyə şərait yaradan «dəyirmi masa» müzakirəsi aparılmışdır. Sessiyalar dörd kateqoriyanı əhatə etmişdir: dolayı metodların tətbiq olunmasının müsbət və mənfi cəhətləri; sənaye standartlarından, biznes meyarlarından və parametrlərindən istəfadə; dolayı metodların tətbiqi üçün hüquqi şərtlər və məhdudiyyətlər; dolayı metodlardan istifadə olunmasını dəstəkləmək üçün informasiya texnologiyaları və alətləri vasitəsilə çözümlər tapılması.

Seminarın birinci günündə dolayı metodların tətbiqində vergi qiymətləndirilməsi üzrə əldə edilmiş təcrübələr və qarşıya çıxan problemlər barədə İrlandiya, Litva və Polşa vergi rəsmiləri tərəfindən təqdimatlar edilmişdir. Vergi qiymətləndirməsinin ən səmərəli metodlarının seçilməsində nəzərə alınan amillərdən başlamış vergi borclarının hesablanmasında dolayı metodların tətbiqi zamanı vergi auditorlarına böyük köməyi dəyən daha çevik əməletmə fəaliyyətləri (məlumatların toplanması, yerli araşdırma, çoxtərəfli nəzarət, audit və nəşrlər) üzrə faktiki dəlillərə qədər müxtəlif məsələlər müzakirə edilmişdir. Təqdimatlardan sonra nümayəndələr kiçik qruplara bölünərək öz aralarında vergi orqanları tərəfindən istifadə olunan dolayı metodların müsbət və mənfi nəticələrini müzakirə etmişlər.

İkinci gün aparılan iki məşğələ texniki məsələlərə həsr olunmuşdur. Seminar iştirakçıları sənaye standartlarının, biznes meyarlarının və parametrlərinin istifadəsinə həsr olunmuş səhər sessiyasında vergi ödəyicilərinin müəyyən kateqoriyaları (fərdi sahibkarlar, həmçinin kiçik və orta sahibkarlar və s.), eləcə də biznes sahələri (məsələn, kənd təsərrüfatı, inşaat, əczaçılıq və s.) üzrə dolayı metodların uğurlu tətbiqi ilə bağlı Polşa, İtaliya və Almaniyanın vergi orqanları nümayəndələrinin mövqeləri ilə tanış olmuşlar. Qrup sessiyalarının gedişində vergi boclarının hesablanması zamanı sənaye standartlarından, biznes meyarlarından və parametrlərindən, eləcə də həm daxili, həm də kənar informasiya mənbələrindən istifadənin müsbət və mənfi cəhətləri müzakirə edilmişdir. Hüquqi şərtlərə və məhdudiyyətlərə həsr olunmuş sessiyada Estoniya təmsilçisi vergi boclarının hesablanmasında dolayı metodlardan istifadənin hüquqi aspektlərini diqqətə çatdırmışdır. Qrup müzakirələrində isə vergi orqanlarının dolayı metodlardan səmərəli istifadə etmələri üçün mövcud hüquqi şərtlərin yaratdığı problemlər, eləcə də dolayı metodların uğurlu tətbiqinə kömək göstərə biləcək mümkün hüquqi çözümlər barədə fikir mübadiləsi aparılmışdır.

Seminarın sonuncu gününün başlıca mövzusu vergi orqanlarında dolayı metodların tətbiqinin genişləndirilməsi üçün informasiya texnologiyalarından istifadə məsələsinə həsr olunmuşdur. İsveç nümayəndəsinin təqdimatında vergi borclarının hesablanmasında məlumatların yığılmasına yardım göstərən müxtəlif informasiya sistemləri və informasiya texnologiyası alətləri nümayiş etdirilmişdir.